# Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi ilə əlaqədar Özbəkistanda konsert təşkil olunacaq



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli ilə Əlişir Nəvai adına Dövlət Akademik Böyük Teatrının direktoru Ramiz Usmanov arasında görüş olub.**

Mərkəzdən bildirilib ki, görüş görkəmli Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyinin qeyd edilməsinə həsr olunub.

Vurğulanıb ki, Özbəkistanda 1920-ci illərin əvvəllərindən Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan", "Məşədi İbad", "Leyli və Məcnun" və s. əsərləri əsasında milli musiqi əsərləri yaradılmağa başlanıb, bununla əlaqədar Özbəkistanda peşəkar teatrın yaranması və inkişafında, professional musiqi sənətinin formalaşmasında, kadrların yetişməsində Üzeyir bəy Hacıbəyli yaradıcılığı xüsusi rol oynayıb.

Görüşdə qeyd edilib ki, Üzeyir bəy Hacıbəylini Şərq musiqi sənəti tarixinin əsas simalarından biri adlandırmaq olar. Onun irsinə təkcə operalar deyil, həm də komediyalar, kamera orkestri üçün əsərlər və bütün dünyada tanınmış bir çox digər şah əsərlər daxildir.

Sonda Azərbaycan Mədəniyyət Mərkəzinin təklifi ilə Azərbaycan və Özbəkistan incəsənət ustalarının iştirakı ilə xalqlarımız arasında mədəni mübadilənin və dostluğun rəmzinə, eləcə də Üzeyir bəy Hacıbəylinin yaradıcılığına ehtiram əlaməti olacaq birgə konsertin keçirilməsi qərara alınıb.

Azərbaycan.- 2025.- 18 fevral (№36).- S.11.